*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 11 fevral 2021-ci il tarixli, SQ-07/2021-1 saylı qərarı ilə təsdiq edilmişdir.*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə səsvermə günü istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin**

**S İ Y A H I S I**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə səsvermə günü istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, bu Siyahı[1] və digər qanunvericilik aktları ilə müəyyən edilir.

**1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə səsvermə günü istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlər**

1.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə səsvermə günü aşağıdakı sənədlərdən istifadə edilir:

1.1.1. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi;

1.1.2. Azərbaycan Respublikası vətəndaşının müvəqqəti şəxsiyyət vəsiqəsi.

1.2. Qaçqın və məcburi köçkün vətəndaşlar:

1.2.1. bu siyahının 1.1-ci bəndində göstərilən şəxsiyyətlərini təsdiq edən sənəd yoxdursa, Azərbaycan Respublikasının Qaçqınların

---

[1] *Seçki prosesində bu Siyahıda göstərilən sənədlərdən başqa, digər sənədlərdən istifadə olunması yolverilməzdir.*

və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən müəyyənləşdirilmiş formalı vəsiqə.

1.3. Həqiqi və ya müddətli hərbi xidmətdə olan hərbi qulluqçular:

1.3.1. zabitin şəxsi vəsiqəsi;

1.3.2. hərbi bilet.

1.4. Barələrində həbs qətimkan tədbiri seçilərək istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər:

1.4.1. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənəd.

1.5. Azadlıqdan məhrumetmə yerlərində (cəzaçəkmə müəssisələrində) cəza çəkən şəxslər:

1.5.1. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş məhkumun şəxsiyyətini təsdiq edən sənəd.